

Vaqif YUSİFLİ,
filologiya elmləri doktoru

# GÜLNARƏ CƏMALƏDDİN

## ("Bölgələrdə ədəbi həyat")

**Siz intihar edən qar dənəciyi görmüsünüzmü? Əvvəla, bunun özü obrazlı bir ifadədir. Lakin indi gəlin bu adda bir şeirə diqqət yetirək. Şeirin müəllifi yaşca heç də cavan olmayan, amma hər dəfə yeni şeirləri çap olunanda cavanlıq təravətilə seçilən Gülnarə Cəmaləddindir.**

Gülnarənin şeirində bir qar dənəciyi yer üzünə özünü atır ki, onu çirkabdan təmizləsin, dünyaya bir saflıq yaysın. Amma qar dənəciyinin ömrü nə qədərmiş? Doğrudanmı onun ölümü - "intiharı" insanı müdhiş ölüm barədə düşünməyə sövq edir? Əlbəttə, burada şeirin assosiativ çalarını hiss edirsən.

**Sənin ağlığından adam üşüyür,**
**Sənin təmizliyin çoxuna yaddı.**
**Sənin səssizliyin, sənin sükutun,**
**Sənin soyuqluğun adam öldürür.**
**Allahdan yuxarı getməyə yol yox,**
**Allahdan aşağı ölməyə yer var.**
**Hər kəsin dilində sevdiyi dua,**
**Hər kəsin içində ilahi sirr var.**
**İntihar eləyən qar dənəciyi,**
**Çırpırsan özünü torpağa, daşa.**
**Qorxuram hamını çəkə intihar,**
**Dünyada bir təmiz adam qalmaya.**

Gülnarənin şeirlərinin təzəliyi nədədir? Unudulmaz Rəsul Rza 60-cı illərin gənc şairi İltifat Salehə ünvanladığı məktubda yazırdı: "Tapmaq. Tapılanı bədii formasında ifadə edə bilmək. Şeirin, sənətin məğzi budur. Götürmək, mənimsəmək, quraşdırmaq yox, məhz tapmaq. Mövzunu gərək tapasan. Onun ifadə formasını tapasan... Sözü işlədəndə elə işlətmək lazımdır ki, o, artıq görünməsin. Vəzn, qafiyə, effekt xatirinə deyil, fikir və hissləri ifadə etmək üçün gərəkli, yararlı, zəruri olsun". Gülnarə Cəmaləddin məhz bu yolla gedir-axtarır, tapır, mövzunu da, onun ifadə formasını da.

Ərəb dünyasında bahar olurmu? Mövzu tapıldı və Gülnarə ərəb baharını belə təsvir edir:

**Səhrada bahar olmur**
**çiçəklər açılmır**
**Hardan gəldi bu bahar**
**Güllələr açıldı**
**Baharın mübarək,**
**dəvəsi ölmüş ərəb.**
**Gülləyə tuş gələn analar**
**əlini Allahdan üzüb**
**div şəkli çəkər**
**öz qanıyla**
**isti qumun üstünə**
**baharın mübarək**
**dəvəsi ölmüş ərəb.**

Sevgidən, bu sevginin vüsalından, hicranından, əzabından yazmayan şair varmı? Sevgi təzadlı bir aləmdi. Gülnarənin sevgi şeirləri azdı, amma hər birində təzəlik var.

**Səni sevmək**
**Şopeni dinləmək qədər dadlı**
**Və**
**Bir çiçəyi anlamaq qədər hüznlü**
**Səni sevmək**
**odla oynamaq qədər qorxulu**
**Səni sevmək**
**ölümü sevmək**
**demək.**

Gülnarənin şeirlərində mən Əli Kərimdən gələn bir təsir dalğası hiss edirəm. Əlbəttə, sözün yaxşı mənasında. Əli Kərimə məxsus metaforik düşüncə tərzi və bir də şeirdə fikrin konstruksiyası baxımından Əli Kərimdən öyrənməli çox şey var. Ümumiyyətlə, Gülnarə lap ilk şeirlərindən metaforalarla işləməyi çox sevib.

"Qəhvə rəngi" şeirində "yuxularında gördüyü bədöy atların kişnərtisi, nal səsləri, əcəl zəngi", "Anamın üzü" şeirində Allahla Ana üzü arasında oxşarlıq və Yerin, göyün süd rəngində olması, mələklərin göz yaşının onun yuxularına Ana südü kimi axması"...mənə məhz Əli Kərimi xatırlatdı.

Fikrin konstuksiası məsələsinə gəldikdə. O da Əli Kərim kimi poetik fikrin ardıcıllığına xüsusi diqqət yetirir. Yəni onun ifadə etmək istədiyi fikir addım-addım, pillə-pillə sona doğru baş alır.

Gülnarənin adsız bir şeirində bir sarı çiçəkdən və bir pəncərəyə özünü çırpıb həkdən düşən sərçədən danışılır. Sarı çiçək açılır və solur. Yaşıl ağac lal-dinməz dayanıb. Pəncərəyə özünü çırpan sərçə "dünyaya meydan oxuyan körpədir". Bunlar "zalım dünya" ilə qarşılaşdırılır.

**Hələ ana laylası kimi şirindi**
**oynat**
**hələ sənindi, sənindi bu zalım dünya**
**Oynamağa həvəs nə gəzəcək səndə**
**dərddən qol götürüb oynayacağın gün.**
**Qarşında atılıb-düşəcək bu lal olmuş dünya**
**Sən heyrətdən lal olacağın gün.**

Sonda bir gileyimi gizlətməyəcəyəm. Belə istedadlı bir şairin cəmi bircə kitabı çıxıb.

Amma... kitab ha.